UOT 82 – 09

**İlahə Məcidova**
***ADU***
***goddess_adu@mail.ru***

# ƏDƏBİ-BƏDİİ FİKİRDƏ UTOPİYADAN ANTİUTOPİYAYA KEÇİD

**Açar sözlər:** elmi fantastika, utopiya, antiutopiya, yeni cəmiyyət modeli.
**Key words:** science-fiction, utopia, dystopia, a new model of society.
**Ключевые слова:** научная фантастика, утопия, антиутопия, новая модель общества.

Elmi-fantastik ədəbiyyat müxtəlif sahələri əhatə etdiyindən, fərqli mövzu və ideyalara müraciət etdiyindən bir neçə alt-janrlara bölünür: utopiya, antiutopiya, xronofantastika (zamanda edilən səyahətlərdən bəhs edilir – H.Uells "Zaman maşını"), alternativ-tarixi fantastika (keçmişdə baş vermiş hər hansısa bir hadisənin bugünə edəcəyi təsirdən bəhs edilir. Bu janrın da yaradıcısı H.Uells hesab olunur. R.Bredberinin "Göy gurultusunun səsi" hekayəsi alternativ-tarixi fantastika janrına nümunə ola bilər.), apokaliptik və postapokaliptik fantastika (planetlər arası, qalaktikada baş verən toqquşmalar, ulduz müharibələri, pandemiyalar, ekoloji fəlakətlər təsvir edilir. Bu janra ilk nümunə M.Şellinin "Son insan" əsəri hesab oluna bilər.), kosmik opera (əyləncəli elmi-fantastik xüsusiyyətləri özündə birləşdirir), kiberpank (yeni texnologiyaların təsiri altında dəyişən dünya təsvir olunur, telekommunikasiya vasitələrinin və komputerlərin təkamül prosesi əsas mövzu kimi təqdim edilir.), nanopank (bioloji silahların, nano texnologiyanın nəticələri, genofondun dəyişdirilməsi kimi ciddi bəşəri problemlər təsvir edilir)[4].

Elmi-fantastik ədəbiyyata aid olan utopiya janrı yazıçının gələcəklə bağlı təxəyyülündə canlandırdığı ideal cəmiyyət modelinin bədii mətndə inikas formasıdır. Bəşəriyyət panteist təsəvvür imkanlarından istifadə edərək yarandığı ilk dövrlərdən xoşbəxt olmağın xəyalları ilə yaşamış və bunun nəticəsi olaraq, təxəyyüldə də olsa, bütün dinlərdə "o biri dünya", "cənnət" adlandırılan mükəmməl dünya modelinin dünyəviləşmiş invariantını yaratmışdır.

E.ə. VIII-VII əsrlərdə yunan şairi Hesiodun "Zəhmətlər və günlər" poemasında verilmiş utopik təsəvvürlər daha sonra Platonun "Dövlət" əsərinin ideyasını təşkil etmişdir. İntibah dövründə F.Rablenin "Qarqantüa və Pantaqruel" (Telem abbatlığı), T.Kampanellanın "Günəş dövləti", T.Morun "Utopiya" F.Bekonun "Yeni Atlantida" əsərlərində də utopik ideyalara

müraciət edilmişdir. Bu əsərlərin hər biri cəmiyyətin keçdiyi bütün inkişaf dövrlərində insanların ideal dünyaya duyduqları marağın ən bariz nümunələridir. Dövrün əsas leytmotivi hesab olunmasa da, hətta müəyyən mənada böhrana uğrasa da, XX əsrdə də hələ utopik idealları əsərlərinə mövzu edən müəlliflərə rast gəlmək mümkündür. Samuel Batlerin 1901-ci ildə qələmə aldığı "Ervona qayıdış" ("Erewhon Revisited"), Aleksandr Boqdanovun "Qırmızı ulduz" ("Красная звезда"), Oldos Hakslinin "Ada" ("Island") romanlarında ideal dünya modeli təsvir edilmişdir.

Bəzən utopik əsərlərin müəlliflərinin eyni hadisələri simvolik planda təsvir etdikləri qeyd edilir. Buna səbəb odur ki, onları qeyri-adi hadisələr maraqlandırmır, çünki bu əsərlərdə təsvir edilən dünya modeli özü-özlüyündə qeyri-adidir.

Ədəbiyyat nəzəriyyəçiləri utopiya janrını iki istiqamətə bölürlər: texnokratik utopiya – sosial problemlər texnika vasitəsilə həll edilir; sosial utopiya – cəmiyyətin fərdlərinin dəyişdirilməsi ilə bütövlükdə yeni sosium yaradılır [5].

Gerçəkləşməsi qeyri-mümkün olan ideal substantiv cəmiyyət modelinə əsaslanan utopiya, həmçinin də, mövcud cəmiyyətin tənqidinə əsaslanırdı. Yaşadıqları quruluşu, siyasi-iqtisadi durumu bəyənməyən, asketizmi yeganə şüur hesab edən, təbəqələşmənin əleyhinə çıxan utopistlər, bir növ, diktator rolunda çıxış edərək gücün və imkanların varlılardan alınıb ziyalılara verilməsini tələb etdikdə fərqli dünya modeli ortaya çıxdı. Artıq XX əsrin əvvəllərində bu ideyalar reallaşmağa başladı və arzuolunmaz bir cəmiyyət məfhumu yaranmış oldu. Arzuladığı cəmiyyəti yaratmaq istəyən kütlə qan tökməkdən belə çəkinmədi və nəticədə "utopiya" ideyası qorxunc fəlakətlərə səbəb oldu. Bu yolla xoşbəxtlik əldə edəcəyini zənn edən insanların azadlıqları əllərindən alındıqda, xəyali idealları real dünyalarını məhv etməyə başladıqda cəmiyyət qarşısında labüd sual yarandı – "utopiya"dan necə xilas olmaq olar? Bu tezisdən çıxış edən dahi yazıçı Corc Oruell "Sosialistlər niyə xoşbəxtliyə inanmırlar?" [6] essesində utopik ideyaların qeyri-reallığını göstərməyə çalışmışdır. Zaman keçdikcə utopik ideyalara münasibət kəskin formada dəyişdi və onun antitezisi olan antiutopiyaya maraq yaranmağa başladı. Elmi fantastika janrında yazılan əsərlərdə öz əksini tapan antiutopik ideyalar inkişaf edərək ayrıca ədəbi janr kimi formalaşmağa başladı. Zam-yatin kimi inqilabçı, Oruell kimi radikal demokrat, Haksli kimi liberal qüvvələri təmsil edən yazıçılar antiutopiyanın təbliğinə başlamışdılar.

Gerçəkliyin fantastik modeli kimi təşəkkül tapan utopiya və eyni zamanda həm utopiyanın məntiqi əksi, həm də davamı kimi çıxış edən antiutopiya insanın dünyanı dərketmə formalarından biridir. Bu, bir-birindən törəmiş anlayışların əsas fərqi ondan ibarətdir ki, utopiyada real dünya ilə ideal dünya mütləq şəkildə bir-birinə qarşı qoyulur. Antiutopiyada isə qeyri-ideal dünya real dünyanın içərisində mövcud olan müəyyən meyllərin nəticəsi kimi meydana çıxır. Belə ki, utopik dünya qapalı, antiutopik dünya isə açıqdır. Utopik dünyanın sərhədləri məhduddur və o bu ideal çərçivədə qalmağa meyillidir, antiutopia isə ekspansiyaya (sərhədlərini genişləndirməyə) meyl edir və nəticə etibarı ilə bütün dünyanı ehtiva etməyə çalışır. Başqa sözlə desək, antiutopiya janrına müraciət edən sənətkarlar utopiyaya olan inamlarını itirmiş yazıçılardır.

Bundan başqa, utopiyanın yaradıcısı öz əsərində mütləq şəkildə öz dünyagörüş mövqeyini ifadə edir, halbuki antiutopik əsər yazan müəllif heç də bu mövqedən çıxış etmir. O, öz idealını deyil, başqasının idealını təcəssüm edir. Onun əsas qayəsi başqasının idealını ifşa edib cəmiyyətin gözündən salmaqdan ibarətdir [3, s.174]. Nə utopiya, nə də antiutopiya janrında yazan yazıçılar dünyanı qəbul edirlər, hər iki qütb öz prizmasından çıxış edərək mövcud dünya modelini dəyişməyə çalışır, bəşəriyyətin parlaq gələcəyinə inanmırlar, utopiyada bu idealı, antiutopiyada isə reallığı fantastik formada təsvir etməklə özünü biruzə verir.

“Distopiya” sözünü ilk dəfə 1868-ci ildə Con Stüart Mill ABŞ-da İcmalar palatasında çıxışı zamanı işlətmişdir. C.S.Mill mövcud iqtisadi və sosial inkişafın utopik idealları süquta uğratdığını vurğulamışdır [7]. Bədii ədəbiyyatda isə distopiya (antiutopiya) ədəbi janr kimi Q.Neqli və M.Patrik tərəfindən tərtib edilmiş “Utopiya axtarışı” [2, s.262] adlı antologiyada işlədilmişdir.

Gələcəkdə baş verə biləcək hadisələri futuristik ehtimallara əsaslanaraq qələmə alan yazıçılar, sözsüz ki, güclü təxəyyül və fantasmaqorik düşüncə potensialına malik şəxslərdir. Antiutopiya kimi fərqli və bir qədər ciddi janrın da bu müəlliflər tərəfindən yaradılması, zənnimizcə, heç də təsadüfi deyil. H.Uells 1895-ci ildə yazdığı “Zaman maşını” romanında elmin və texnologiyanın inkişafının insanların məhvinə səbəb olduğunu təsvir etmişdir. Təsvir edilən insansız cəmiyyət modeli uzaq (bəlkə də, yaxın) gələcəkdəki cəmiyyətin inkişaf göstəricisi hesab edilə bilər.

Amerika ədəbiyyatının görkəmli simalarından sayılan Cek Londonun “Dəmir daban” romanı da antiutopik ideyaların əks olunduğu maraqlı nəsr nümunəsidir. Faşizmin gələcəkdə səbəb ola biləcəyi fəlakətləri öncədən xəbər verən müəllif sanki gələcəkdəki antiutopik cəmiyyət quruluşunu təxmin etməyə çalışmışdır.

İlk dəfə "antiutopik roman necə olmalıdır?" suallarına rus yazıçısı Y.Zamyatin 1921-ci ildə yazdığı "Biz" romanı ilə cavab vermiş oldu. Əsər baş qəhrəman riyaziyyatçı D-503 tərəfindən nəql edilir. Romandakı hadisələr XXVI əsrdə, iki yüz illik müharibədən sonra yaranan "Vahid dövlətdə" cərəyan edir. Vəlinemət adlandırılan dövlət başçısı ölkəni təqvimlərə əsasən idarə edir. Burada yaşayan xalqın heç bir nümayəndəsinin adı yoxdur, insanların adları əvəzinə onların kimliyini göstərən rəqəmlər mövcuddur, kişilər samit, qadınlar isə sait hərflərlə başlayan ad silsilələrinin tərkib hissəsidir. Dövlətdəki şəffaflığın önəmini bildirmək üçün bütün evlər şüşədən tikilir. Y.Zamyatinin təsvir etdiyi ölkədə dövlət birbaşa zorakılığa, şəxsiyyətin bütün hüquqlarının əlindən alınması ilə bağlı prinsiplərə əsaslanır. Fərqli düşüncəyə malik insanlar edam edilir, insanların beynində xəyal qurmaqlarına yardım edən mərkəz cərrahi üsulla ləğv edilir, insanın həyatının bütün sahələrinə dövlət tərəfindən nəzarət olunur. "Biz" romanı ilə Y.Zamyatin dövlətin şəxsiyyət üzərindəki mütləq hakimiyyətini tənqid atəşinə tuturdu.

"Gənc" ədəbi üslub olmasına baxmayaraq, antiutopiyaya müraciət edən yazıçıların sayı günü-gündən artmaqdadır. V.Nabokovun "Bend sinister" (1947), U.Qoldinqin "Milçəklər kralı" (1954), E.Börcesin "Mexaniki portağal" (1962), S.Kinqin "Qaçan adam" (1982), M.Etvudun "Qulluqçunun hekayəsi" (1985), J.Saramaqonun "Korluq" (1995), K.Takaminin "Kral döyüşü" (1999), K.İsiquronun "Məni buraxma" (2005), K.Makkartinin "Yol" (2006), C.Palannikin "Rent" (2007), S.Kollinzin "Aclıq oyunları" (2008) romanları antiutopiya janrına bariz nümunələrdir.

Tədqiqatçı Daren Elenə görə, XX əsrdə antiutopiya janrının üç əsas istiqaməti var idi. 1) Oruellsayağı – daimi nəzarət və daimi senzura, seçimin məhdudlaşdırılması, həqiqətin gizlədilməsi, qorxu, zorakılıq, totalitar sistemin təzyiqi kimi mövzular C.Oruellin ədəbi istiqamətindəki antiutopik elementləri müəyyənləşdirir. 2)Hakslisayağı – kapitalist və texnokratik sistemlər, texniki zərurətin texniki fəlakətə çevrilməsi, zərərli vərdişlər, müharibə, beyinlərin idarə edilməsi O.Hakslinin distopiyasına xas xüsusiyyətlərdir. 3)Kafkasayağı – bürokratik idarə üsulu, şəxsiyyətin deqradasiyası, hər şeyin mücərrədləşməsi, stress və psixoloji gərginliyin səbəb olduğu fəlakətlər, sosial təzyiqlərin insanın məhvinə səbəb olması F.Kafkanın yaradıcılığındakı distopik proqnozlardır [8].

Azadlıq, bərabərlik prinsipləri üzərində qurulan utopik cəmiyyətə zidd olaraq yaranmış distopiya anlayışının yunan dilindən tərcümədə hərfi mənası "gözəl olmayan", "arzulanmayan yer" deməkdir. Bu baxımdan da, antiu-

topik cəmiyyət dedikdə, zoraki idarə sisteminin mövcud olduğu totalitar cəmiyyət modeli nəzərdə tutulur.

M.Keyt Bukerin fikirlərinə görə, "elm utopik düşüncə tarixində və utopiyaların antiutopiyalara çevrilməsində böyük rol oynayır. "Distopiya" anlayışının əsas mahiyyətini yadlaşma problemi təşkil edir. Utopiya zaman və məkan olaraq uzaq nəsnələrlə maraqlanırdısa, distopiya günümüzdə mövcud olan problemlərə yeni münasibət formasını inkişaf etdirir" [1, s. 8].

XX əsrdə dünya müharibələri, iqtisadi-siyasi və mənəvi böhranlar, elm və texnikanın inkişafının insana qarşı yönəlməsi, bəşəriyyəti bürüyən ölüm qorxusu, qəddarlığın artması, insanın-insana qarşı qoyulması totalitar idarə üsulu kimi dəhşətli kataklizmlərin artması nəticəsində insanın gələcəklə bağlı pozitiv ümidləri puç oldu və artıq insan onun əli ilə dəyişdirilən fəlakət dolu dünyanın qurbanına çevrildi. Qloballaşan dünyada özgələşən insan faktoru yarandı. Bütün bunlar isə optimist səciyyəli utopiyadan tamamilə uzaq olduğundan, mövcud durumu kəskin formada çatdırmağa "çalışan" antiutopiya janrının yaranmasına yol açdı.

**İstifadə olunmuş ədəbiyyat**


1. Booker M. Keith, The Dystopian İmpulse in Modern Literature, L.ondon, Greenwood Press, 1994.
2. Negley G., Patrick J. M. - The Quest for Utopia: An Anthology of Imaginary Societies, The Canadian Journal of Economics and Political Science, Vol. 20, No. 2 (May, 1954).
3. Sargisson L., Sargent L.T. Living in utopia. Ashgate publishing. Ltd, 2004.
4. http://parafr.az/oxu.php?id=2051
5. https://literaryterms.net/utopia/
6. https://orwell.ru/library/articles/socialists/english/e_fun
7. https://www.bl.uk/20th-century-literature/articles/freedom-or-oppression-the-fear-of-dystopia
8. https://expressiveegg.org/2017/01/03/four-kinds-dystopia/


**Ilaha Majidova**

**Summary**

**Transition from utopia to dystopia in literary thought**

Utopia is a common literary theme, especially in a speculative and science-fiction genre. Utopian fiction is set in a perfect world, while a dystopian novel drops its main character into a world where everything seems to go wrong. The article is devoted to the etymology and transformation period of utopia and dystopia within the literature. There were given main classifications of these genres.

**Илаха Мажидова**

**Резюме**

**Переход от утопии к антиутопии в литературно-художественной мысли**

Утопия - распространенная литературная тема, особенно в жанре умозрительной и научной фантастики. Утопическая фантастика разворачивается в идеальном мире, в то время как роман-антиутопия переносит своего главного героя в мир, где все, кажется, пошло не так. Статья посвящена этимологии и периоду трансформации утопии и антиутопии в мировой литературе, в ней предеставлена видовая классификация этих жанров.

*Rəyçi: fil.e.d., prof.A.Sabitova*

*Redaksiyaya daxil olub: 30.06.2020*